# Vasitəçiyə ehtiyac yoxdur

## Artıq Ermənistanla Azərbaycan arasında normallaşma prosesi ikitərəfli xarakter daşıyır

30 il müddətində Ermənistan ilə Azərbaycan arasında münaqişənin danışıqlar yolu ilə həll oluna bilməməsində məhz qərəzli, ikilistandartlı siyasət yürüdən vasitəçilərin rolunun böyük olduğu danılmaz reallıqdır. Faktiki olaraq onlar münaqişənin nizamlanması istiqamətində heç bir iş görmür, sadəcə bu "ölü" prosesin sonsuzadək sürməsinə səy göstərir, Azərbaycanın torpaqlarının işğalı ilə barışmasına nail olmağa çalışırdılar.

10

# Vasitəçiyə ehtiyac yoxdur

## Artıq Ermənistanla Azərbaycan arasında normallaşma prosesi ikitərəfli xarakter daşıyır

"Qarabağ münaqişəsi" deyə bir problem artıq yoxdur. Bu problem Bakının yürütdüyü qətiyyətli siyasət nəticəsində birdəfəlik həll olunub. Azərbaycanın BMT TŞ-nin 4 qətnaməsini yerinə yetirərək torpaqlarını işğaldan azad etməsi, suverenliyini tam təmin etməsi və Qarabağda separatizmin kökünü kəsməsi sayəsində iki ölkə arasında münasibətlərin normallaşmasına da geniş imkanlar açılıb.



Burada vurğulanası əsas məqamlardan biri də Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin üçüncü tərəflərə lüzum görülmədən həyata keçirilməsidir.

Fevralın 17-də Münxendə Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında görüş də bir daha göstərdi ki, normallaşmaya nail olunması üçün aparılan danışıqlarda kənar vasitəçilərə heç bir ehtiyac yoxdur.

### "Biz öz məsələmizi həll etmişik"

Lakin Cənubi Qafqazda hadisələrin bu istiqamətdə inkişafı bəzi qərəzli xarici qüvvələri heç də qane etmir. Buna görə də belələri olmayan məsələləri süni şəkildə şişirdib "problem" kimi qələmə vermək, "vasitəçi" adı ilə yenidən bölgədəki hadisələrə qarışmaq istəyirlər.

Fevralın 14-də keçirilən inaqurasiya mərasimində Prezident İlham Əliyev də bildirdi ki, bu məsələnin əhəmiyyəti süni şəkildə şişirdilir. Ermənistanın havadarları daim bu məsələni müzakirə etmək, öz səylərini göstərmək istəyirlər, deməli, yorğanı öz tərəflərinə çəkmək, vasitəçi olmaq istəyirlər.

Dövlət başçısı sözügedən çıxışında onu da qətiyyətlə söylədi ki, bizə bu məsələdə vasitəçi lazım deyil: "Mən bunu demişəm, bu yüksək kürsüdən bir daha demək istəyirəm. Biz öz məsələmizi həll etmişik".

30 il müddətində Ermənistan ilə Azərbaycan arasında münaqişənin danışıqlar yolu ilə həll oluna bilməməsində məhz qərəzli, ikilistandartlı siyasət yürüdən vasitəçilərin rolunun böyük olduğu danılmaz reallıqdır. Faktiki olaraq onlar münaqişənin nizamlanması istiqamətində heç bir iş görmür, sadəcə bu "ölü" prosesin sonsuzadək sürməsinə səy göstərir, Azərbaycanın torpaqlarının işğalı ilə barışmasına nail olmağa çalışırdılar.

Konkret olaraq münaqişənin danışıqlar vasitəsilə həlli üçün vasitəçiliyi öz boynuna götürən ATƏT-in keçmiş Minsk qrupunun 28 il ərzində həyata keçirdiyi fəaliyyətsizliyi nəticəsində bu istiqamətdə irəliyə doğru bir addım belə atılmadı. Əksinə, Ermənistanın xeyrinə olaraq münaqişənin olduğu kimi qalması üçün xeyli çabalar sərf olundu.

Azərbaycan bu illər ərzində səbir və dözüm nümayiş etdirərək münaqişənin sülh yolu ilə danışıqlar vasitəsilə həll olunmasını, bununla bağlı mandat almış keçmiş Minsk qrupunun hansısa real addımlar atacağına ümid bəslədi. Ancaq həmsədrlər öz vəzifələrini sadəcə bölgəyə, Azərbaycana turist səfərləri etməklə, yaxşıca yeyib-içməklə bitmiş hesab etdilər. Onlar münaqişəni ədalətli yolla həll etmək əvəzinə Ermənistanın tərəfini tutdular.

Bir başqa gerçəklik isə ondan ibarətdir ki, əgər keçmiş Minsk qrupu zamanında öz mandatına uyğun fəaliyyət göstərmiş olsaydı, heç 44 günlük Vətən müharibəsi də olmayacaqdı.

### "Gedin öz işinizlə məşğul olun"

30 ilə yaxın müddətdə danışıqlar vasitəsilə həlli dalana dirənən Ermənistan ilə Azərbaycan arasındakı münaqişə "dəmir yumruq" vasitəsilə cəmi 44 günə çözüldü. Birgünlük lokal xarakterli antiterror tədbirləri isə erməni separatizmini qarşısında diz çökdürdü. Bir sözlə, Azərbaycan haqq və ədaləti güc yolu ilə özü həll etməli oldu.

Bakı postmünaqişə dövründə iki ölkə arasında normallaşmaya nail olunması üçün fəal iş aparır. Burunlarından vurularaq bu prosesdən uzaqlaşdırılan başda Fransa olmaqla bəzi qərəzli xarici qüvvələr isə bölgədəki işlərə hər vasitə ilə qarışmaq üçün məkrli yollar axtarır, riyakar planlar cızırlar. Gah artıq həll olunmuş və tarixin arxivinə göndərilmiş "münaqişə"dən dəm vururlar, gah da ehtiyac olmadığı halda Ermənistan ilə Azərbaycan arasında normallaşma prosesində vasitəçi kimi iştirak etmək istəyirlər.

Bir sözlə, təşkilatlanaraq bölgəyə özlərini pərçim etmək üçün min bir oyuna əl atırlar. Ancaq andiçmə mərasimində Prezident İlham Əliyev də vurğuladı ki, dövlətimiz çirkin niyyətləri gün kimi ortada olan "vasitəçi"lərin qərəzli oyunlarına heç zaman fəaliyyət imkanı verməyəcək: "Vasitəçi olmaq üçün gərək heç olmasa üzdə bitərəf olasan. Sənin qəlbində nə var, biz bilirik. Amma heç olmasa üzdə, diplomatik qaydalara riayət etməlisən...

Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi beynəlxalq gündəlikdən düşməlidir. Çünki yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun".

Bəli, artıq müharibə başa çatıb, Qarabağ münaqişəsi birdəfəlik həll edilib. Ermənistan-Azərbaycan əlaqələrinin normallaşması üçün də mühüm şərait yaranıb.

Bakı bu istiqamətdə yürütdüyü diplomatik siyasət sayəsində həm də iki ölkə arasında normallaşmanı bəhanə edərək bölgəyə soxulmaq istəyən qərəzli Qərb dairələrinin mənfur istəklərini puç edib. Atdığı adekvat addımlarla bir daha dünyaya sübut edib ki, Ermənistan ilə Azərbaycan arasında normallaşmaya nail olunması üçün kənar vasitəçilərə ehtiyac yoxdur. Sadəcə onların regionumuzdan uzaq durmaları, işlərimizə burunlarını soxmamaları hər kəs, ən çox da özləri üçün daha faydalı olar...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 20 fevral, № 38.- S.1, 10.